*ELMİ İŞ* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 19 Sayı: 8 / 59-63 ISSN: 2663-4619
*SCIENTIFIC WORK* International Scientific Journal. 2025 / Volume: 19 Issue: 8 / 59-63 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/120/59-63

**Lalə Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0004-0683-7191
lale_memmedova95@bk.ru

# Sağlamlıq imkanları məhdud uşaqların sosial-emosional inkişafı üçün terapiyanın əhəmiyyəti

## Xülasə

Hazırkı dövrdə cəmiyyət qarşısında duran əsas məsələlərdən biri sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə uğurla uyğunlaşmasını təmin etmək, onların inkişaf ehtiyaclarını vaxtında aşkar edərək lazımi dəstəyi təqdim etməkdir. Bu uşaqlara yönələn terapiya, onların fərdi inkişaf xüsusiyyətləri və potensialları nəzərə alınaraq, fiziki, emosional, sosial və idrak sahələrdə bacarıqlarını gücləndirməyə yönəlmiş xüsusi metod və müdaxilələri əhatə edir. Terapiyanın növü hər uşağın xüsusiyyətlərinə uyğun seçilməli və bu proses mütəxəssislərdən ibarət multidissiplinar komandalar tərəfindən həyata keçirilməlidir. Sağlamlıq imkanları məhdud uşaqlarda tətbiq olunan terapiyalar onların həyat keyfiyyətinin yaxşılaşdırılmasında və cəmiyyətə inteqrasiyasında vacib əhəmiyyət kəsb edir. Terapiya proqramları uşağın fərdi tələblərinə əsaslanaraq hazırlanmalı və daimi nəzarət altında saxlanılmalıdır. Effektiv nəticələr əldə etmək üçün terapiya yalnız peşəkarlar tərəfindən deyil, həmçinin valideynlər və təhsil müəssisələrinin əməkdaşlığı ilə kompleks şəkildə aparılmalıdır. Cəmiyyət olaraq bizə düşən əsas missiya yalnız yardım göstərmək deyil, həm də bu uşaqların imkanlarını ortaya çıxarmaq və onların həyatlarını daha mənalı və tam yaşaması üçün şərait yaratmaqdır. Bu məqsədə inklüziv yanaşmanın, pedaqoji və psixoloji dəstəyin və fasiləsiz terapiya prosesinin uyğun şəkildə birləşdirilməsi ilə nail olmaq mümkündür.

***Açar sözlər:*** *sağlamlıq məhdudiyyətləri, müalicə, fiziki, emosional, sosial və kognitiv qabiliyyətlər*

**Lala Mammadova**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0004-0683-7191
lale_memmedova95@bk.ru

# The Importance of Therapy for the Social-Emotional Development of Children with Disabilities

## Abstract

One of the main issues facing society today is to ensure the successful adaptation of children with disabilities to society, to identify their developmental needs in a timely manner and to provide the necessary support. Therapy aimed at these children includes special methods and interventions aimed at strengthening their skills in the physical, emotional, social and cognitive areas, taking into account their individual developmental characteristics and potential. The type of therapy should be selected according to the characteristics of each child and this process should be carried out by multidisciplinary teams of specialists. Therapies applied to children with disabilities are of great importance in improving their quality of life and integrating them into society. Therapy programs should be developed based on the individual needs of the child and should be kept under constant supervision. To achieve effective results, therapy should be carried out comprehensively not only by professionals, but also in cooperation with parents and educational institutions. Our main mission as a society is not only to provide assistance, but also to unleash the potential of these children and create conditions for them to live more meaningful and full lives. This goal can be

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

achieved by appropriately combining an inclusive approach, pedagogical and psychological support and a continuous therapy process.

***Keywords:*** *Health limitations, treatment, physical, emotional, social and cognitive abilities*

## Giriş

Müasir cəmiyyətdə əsas prioritetlərdən biri sağlamlıq imkanları məhdud olan uşaqların cəmiyyətə uğurla inteqrasiya olunmasını təmin etmək və onların inkişaf ehtiyaclarını vaxtında aşkar edərək lazımi dəstəyi göstərməkdir**.** Sağlamlıq imkanları məhdud uşaqlar üçün tətbiq edilən terapiya, onların fərdi inkişaf xüsusiyyətlərini və ehtiyaclarını nəzərə alaraq, fiziki, emosional, sosial və idrak qabiliyyətlərinin gücləndirilməsi məqsədilə xüsusi metod və müdaxilələri əhatə edir. Bu terapiya formaları uşağın vəziyyəti və funksional imkanlarına uyğun olaraq fərqli ola bilər. Terapiya prosesi təkcə fiziki və psixoloji çətinliklərin aradan qaldırılması üçün deyil, həm də sosial bacarıqların inkişafı, özünə inamın artırılması və müstəqil həyat bacarıqlarının formalaşması üçün aparılır. Bu baxımdan, terapiya metodlarının düzgün və planlı şəkildə tətbiqi sağlamlıq imkanları məhdud uşaqların inkişafında böyük əhəmiyyət kəsb edir. Bu terapiyaların məqsədi yalnız mövcud məhdudiyyətləri aradan qaldırmaq deyil, həm də uşaqların cəmiyyətə fəal şəkildə qoşulması və özünüifadə imkanlarının genişləndirilməsidir (Aksenova, Arkhipov, Belyakova, 2001). Hər bir terapiya növü uşağın fərdi xüsusiyyətlərinə uyğun seçilməli və multidissiplinar komandanın əməkdaşlığı ilə həyata keçirilməlidir. Sağlamlıq imkanları məhdud (SİM) uşaqların sosial-emosional inkişafı onların ümumi həyat keyfiyyətinə və cəmiyyətə uğurlu inteqrasiyasına birbaşa təsir edən mühüm amillərdəndir. Bu uşaqların fərdi xüsusiyyətləri və ehtiyacları nəzərə alınmadan onların sosial və emosional sferada inkişafı təmin olunmadıqda, onlar qarşılaşdıqları çətinliklərdən dolayı özlərini izolyasiya edilmiş, dəyərsiz və ya cəmiyyət tərəfindən qəbul olunmamış hiss edə bilərlər. Bu baxımdan, terapiya metodları onların bu sahədəki inkişaflarını dəstəkləyərək, potensiallarını tam reallaşdırmalarına şərait yaradır (Ağayeva, 1999).

**Tədqiqat**

Terapiya müxtəlif formalarda – danışıq terapiyası, musiqi və rəqs terapiyası, oyun terapiyası, koqnitiv-davranış terapiyası və s. – tətbiq edilərək uşaqların sosial bacarıqlarının inkişafına yönəldilir. Valideynlərin və müəllimlərin dəstəyi ilə terapiya prosesi daha uğurlu olur. Onların terapiyada aktiv iştirakı və əldə olunan bacarıqların gündəlik həyatda tətbiqi uşağın inkişafını sürətləndirir. Bununla yanaşı, cəmiyyətin inklüziv yanaşması və fərqli ehtiyacları olan uşaqlara qarşı anlayışlı mövqeyi onların sosial həyatına inteqrasiyanı asanlaşdırır (Ağayeva, Əliyeva, 1999).

***ABA terapiyası*** uşağın maraqları əsasında qurulan və hər yeni nailiyyətə görə mükafatlandırma ilə səhvlərin aradan qaldırılmasını təmin edən təkrar metodudur. Bu proqram vasitəsilə uşaq davranışları yalnız təkrarlamır, həm də fərqli vəziyyətlərdə uyğun davranış nümayiş etdirməyi öyrənir. Terapiyanın əsas məqsədi 9 əsas sahədə inkişafı təmin etməkdir: təqlid, qəbul etmə, incə və böyük motor bacarıqları, əl-göz koordinasiyası, sadə fəaliyyətlərin qavranılması, nitq, özünə qulluq və sosial əlaqələr. ABA terapiyasının əsas funksiyası faydalı davranışları artırmaq və mənfi, öyrənməyə mane olan davranışları azaltmaqdır. ABA proqramları dil və ünsiyyət bacarıqlarının inkişafına, diqqət, sosial bacarıqlar və yaddaşın yaxşılaşdırılmasına, eləcə də problemli davranışların azaldılmasına kömək edir (Andreyeva, 2005).

***ART terapiyası və ya təsviri sənət terapiyası*** musiqi, rəsm, rəqs, ədəbiyyat kimi müxtəlif sənət formaları vasitəsilə həyata keçirilir. Bu terapiyanın məqsədi fərdin özünü sərbəst və rahat ifadə etməsi, gizli qalan duyğularını üzə çıxarması və yaradıcılığını inkişaf etdirərək estetik yönlərini ortaya qoymasıdır. ART terapiya emosiyalarla bağlı bir eksperimentdir və bu səbəbdən gizlənmiş emosional problemlər burada asanlıqla aşkarlanır. Emosiyalar kağız üzərində simvollar şəklində ifadə olunur və terapevt bu simvolların mənasını açmağa çalışır. Bunun üçün o, qrafoanaliz biliklərinə sahib olmalıdır. ART terapiyanın müxtəlif növləri mövcuddur: musiqi terapiyası, imaqo terapiyası, foto terapiya, izoterapiya, oyun terapiyası, biblio terapiya, qum terapiyası, rəqs terapiyası, maska terapiyası və s. Bu terapiyada ən çox istifadə olunan işlər “Mandala”, “Mövcud

olmayan heyvan", "Mən kiməm?", "Avtoportret", "Əhval-ruhiyyəm", "Vəziyyətim", "Kollektiv avtoportret", "Ailə gerbi", "Hədiyyələr", "Güzgü" və "Xeyir və şər" kimi adlanır (Qasımov, 2004).

***Koqnitiv-davranış terapiyası (KDT)*** psixoterapevtik üsul olub, disfunksional düşüncə, davranış və emosiyalarla bağlı problemlərin həllinə yönəlib. Bu terapiya həm psixoterapevtik, həm də korreksiya məqsədilə istifadə olunur. KDT-də strukturlaşdırılmış yanaşma ilə problemlərin həllinə fokuslanılır və həm koqnitiv, həm də davranış yönümlü texnikaları özündə birləşdirir.

***İnterpersonal psixoterapiya (İPT)*** isə şəxsin həyatındakı yaxın insanlarla əlaqələrdə yaranan emosional problemlərin həllinə istiqamətlənir. Bu terapiya sağlamlıq imkanları məhdud uşaqların ailə və yaxınları ilə münasibətlərinin yaxşılaşmasına dəstək verir. Nəticədə uşağın emosional vəziyyəti yaxşılaşır, psixopatoloji simptomlar azalır. İPT-də həftədə 1-2 dəfə olmaqla 20-dən çox seans keçirilir.

***Musiqi terapiyası*** musiqi vasitəsilə həyata keçirilən müalicə üsuludur. Musiqiyə heç kəs biganə qala bilməz; həm uşaqlar, həm də böyüklər musiqiyə reaksiya verir. Musiqi insanın əhvalını yaxşılaşdırır, dərin düşüncələrə dalmasına, arzularının güclənməsinə səbəb olur. Əqli gerilik yaşayan şəxslərdə də musiqi bu cür təsir göstərir. Düzgün seçilmiş musiqi müəllimə uşaqlarda inamı artırmaq və əhval-ruhiyyəni yüksəltmək imkanı verir. Musiqi terapiyası sayəsində diqqət, yaddaş inkişaf edir, hərəkətlərin koordinasiyası yaxşılaşır. Hər uşaq üçün fərdi musiqi seçimi aparılmalıdır. Bu yolla aqressiya azaldıla, rahatlama təmin oluna və bəzən uşaqların aktivlik səviyyəsi tənzimlənə bilər.

***Musiqi və rəqs terapiyası*** duyğusal əlaqələrin qurulmasına, davranış problemlərinin azaldılmasına və uğur hissinin yaranmasına səbəb olur (Hüseynova, İmanova, 2020).

***Qum terapiyası*** autizm, davranış pozuntuları və emosional-iradi problemləri olan uşaqların inkişafına müsbət təsir göstərir. Bu terapiya əsasən kiçik motorikanın inkişafı üçün istifadə olunur. Aromaterapiya və musiqi terapiyası ilə birləşdirildikdə daha effektiv olur. Qumla işləmə, təbiət səsləri və xüsusi musiqi parçaları altında həyata keçirilən məşğələlər emosional vəziyyəti tarazlayır.

***Qrup terapiyası*** uşaqlarda həyat ritminin formalaşmasına yönəlir. Məqsəd uşaqlarda emosional stabilliyi təmin etmək, fiziki inkişafı, özünə qulluq vərdişlərini və intellektual inkişafı qrup şəraitində təmin etməkdir (Hüseynova, Rüstəmova, 2006).

***Yoqa terapiyası*** sağlamlıq imkanları məhdud uşaqlar üçün effektiv metodlardan biridir. Onlar elastikliyi yüksək olduğundan yoqa hərəkətləri və duruşları onlar üçün problem yaratmır. Yoqa məşqlərində əzələ gücü, koordinasiya və ayaq gücü xüsusi diqqət tələb edir. Yoqa uşaqlarda diqqəti, bilik əldə etməyi, sayma bacarığını inkişaf etdirir. Bu terapiya nəticəsində uşaqlar düzgün nəfəs alır, bədənlərini hiss edir, diqqətlərini yönləndirir və məkanda özünü tanıyır (İnklüziv siniflərdə təlimin təşkili, 2018).

***Nağıl terapiyası*** nitqin inkişafına, diqqətin toplanmasına, təfəkkür və təxəyyülün formalaşmasına, mədəni ünsiyyətin qurulmasına, müqayisə bacarığının yaranmasına və xeyir-şər anlayışlarının dərk olunmasına xidmət edir. Bu terapiya bütün sağlamlıq imkanları məhdud uşaqlara uyğun ola bilər. Nağıllar məqsədə uyğun seçilməli, uşaqların mənfi davranışlarını özündə əks etdirən hissələr vasitəsilə özlərini həmin obrazlarla əlaqələndirməsi təmin edilir. Bu sayədə uşaqlar əməllərini qiymətləndirir, müxtəlif duyğuları dərk edir və çətin vəziyyətlərdə nağıllardan yardım ala bilirlər. Nağıl terapiyası aqressiya, qorxu, ünsiyyət çatışmazlığı və davranış pozuntuları olan uşaqlar üçün əhəmiyyətlidir və terapiya zamanı əldə olunan nəticələr istənilən problemlərin həllinə kömək edir (Hüseynova, 2020).

***Oyun terapiyası*** uşaqlar üçün nəzərdə tutulmuş xüsusi fəaliyyətdir. Bu terapiyada oyun və oyuncaqlar vasitəsilə uşaqların ehtiyacları və duyğuları ifadə edilir. Uşaqlara müxtəlif oyuncaqlar təqdim olunur və onlar sənət, qum kimi vasitələrdən istifadə edərək özlərini ifadə etmə imkanı əldə edir. Oyun vasitəsilə uşaqlar sıralama, mübarizə aparma və paylaşma kimi sosial bacarıqları öyrənirlər. Uşaqlar böyüklərdən fərqli olaraq duyğularını sözlə ifadə etməkdə çətinlik çəkirlər, buna görə oyun terapiyası onların hisslərini anlamağa kömək edir (Loreman, Deppeler, Harvey, 2020). Autizm spektr pozuntusu olan uşaqların oyuncaqlarla davranışı fərqlidir: onlar oyuncaqları məqsədsiz olaraq fırladır, itələyir və ya saatlarla əlindən buraxmırlar. Oyun terapiyası zamanı məqsəd istiqamətli və öyrədici oyuncaqlardan istifadə olunmalı, uşaqların düzgün oyun bacarıqları

inkişaf etdirilməlidir. Məsələn, iç-içə keçən qutular və piramidalar ilkin oyun bacarıqlarının formalaşması üçün faydalıdır. Autistik uşaqların xəyal gücünü artırmaq üçün müxtəlif materiallardan istifadə qaydası öyrədilməlidir. Onların parkda pilləkənləri yalnız əzələ hərəkəti üçün deyil, həm də maneəni aşmaq və ya oyun məqsədilə istifadə etməsi təmin olunmalıdır (Rəfiyeva, Məmmədova, Abbasova, Yusifova, 2020; Rəfiyeva, Məmmədova, Yusifova, Abbasova, 2020).

## Nəticə

Nəticə etibarilə, sağlamlıq imkanları məhdud (SİM) olan uşaqlara tətbiq olunan terapiya üsulları onların həyat səviyyəsinin yaxşılaşdırılması və cəmiyyətə inteqrasiyasında vacib rol oynayır. Hər bir terapiya növü uşağın fərdi xüsusiyyətləri nəzərə alınaraq planlaşdırılmalı və davamlı olaraq qiymətləndirilməlidir. Terapiya yalnız peşəkar mütəxəssislərin deyil, həmçinin valideynlərin və təhsil müəssisələrinin birgə dəstəyi ilə kompleks şəkildə həyata keçirildikdə daha uğurlu olur. Cəmiyyət olaraq əsas məqsədimiz bu uşaqlara sadəcə yardım etmək deyil, onların potensialını üzə çıxarmaq və həyatlarını daha mənalı, zəngin şəkildə yaşamaqlarına şərait yaratmaqdır. Bu isə inklüziv yanaşma, pedaqoji-psixoloji dəstək və terapiyanın fasiləsiz tətbiqi ilə harmonik şəkildə mümkündür. Müxtəlif kateqoriyalardan olan əlilliyi olan uşaqlar (eşitmə və görmə qabiliyyətinin zəifləməsi, autizm spektr pozuntusu və s.) ümumi təhsil müəssisələrinə daxil olduqda, məktəb rəhbərliyi, mütəxəssislər və müəllimlər bu uşaqların təhsili sahəsində əlavə peşəkar təlim proqramlarını yüksək səviyyədə mənimsəməlidirlər. Təlim prosesində mümkün qədər çox analizatorların (eşitmə, görmə, tənəffüs və s.), motorika, yaddaş, məntiqi düşüncə kimi funksiyaların inkişafına diqqət yetirilməlidir. Əlbəttə, SİM olan uşaqlarla iş zamanı onların psixoloji xüsusiyyətləri də diqqətə alınmalıdır.

Cəmiyyət olaraq məsuliyyətimiz təkcə bu uşaqlara yardım göstərmək və ya onların çətinliklərini kompensasiya etməklə bitmir. Əsas məqsədimiz bu uşaqların potensiallarını tam reallaşdırmasına, özlərini cəmiyyətin dəyərli üzvü kimi hiss etməsinə və daha mənalı, layiqli həyat sürməsinə şərait yaratmaqdır. Bu isə yalnız inklüziv yanaşma, davamlı pedaqoji-psixoloji dəstək, düzgün istiqamətləndirilmiş terapiya proqramları və cəmiyyətin ümumi maarifləndirilməsi ilə mümkün ola bilər.

Unutmaq olmaz ki, sağlamlıq imkanları məhdud uşaqların sosial-emosional inkişafı onların gələcək həyatlarına qoyulan ən möhkəm təməldir. Onların inkişafında aparılan hər bir düzgün addım – istər terapiya, istər ailə dəstəyi, istərsə də inklüziv təhsil – uzunmüddətli və davamlı nəticələrə səbəb olur. Bu səbəbdən də, sosial-emosional inkişaf yönümlü terapiya yanaşmaları SİM uşaqların cəmiyyətə adaptasiyası, şəxsiyyət kimi formalaşması və gələcək uğurları üçün əsas şərtdir.

## Ədəbiyyat

1. Aksenova, L. I., Arkhipov, B. A., & Belyakova, L. I. (2001). *Spetsial'naya pedagogika*. Akademiya.
2. Ağayeva, T. H. (1999). *Ümumtəhsil məktəblərində loqopedik işin təşkili*. ADPU.
3. Ağayeva, T. H., & Əliyeva, S. M. (1999). *Loqopediyanın nəzəri-praktik məsələləri*. Maarif.
4. Andreyeva, L. V. (2005). *Glukhaya pedagogika*. Moskva.
5. Hüseynova, N. T., & İmanova, L. H. (2020). *Diaqnostika işlərinin həyata keçirilməsi*. ADPU.
6. Hüseynova, N. T., & İmanova, L. H. (2020). *Korreksiya işlərinin həyata keçirilməsi*. ADPU.
7. Hüseynova, N. T., & Rüstəmova, L. H. (2006). *Xüsusi pedaqogika*. ADPU.
8. İnklüziv siniflərdə təlimin təşkili. (2018). TİPİİ.
9. Loreman, T., Deppeler, J., & Harvey, D. (2020). *İnklüziv təhsil: Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar* (Regional İnkişaf İctimai Birliyi, Trans.). Bakı. *(Orijinal əsər 2010-cu ildə nəşr olunubsa, qeyd edilə bilər: Original work published 2010)*
10. Qasımov, S. Ə., & Kərimova, E. M. (2004). *Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası*. Çaşıoğlu.

11. Rəfiyeva, L., Məmmədova, M., Abbasova, S., & Yusifova, E. (2020). *İnklüziv təhsilə cəlb olunan uşaqlarla işin aparılması*.
12. Rəfiyeva, L., Məmmədova, M., Yusifova, E., & Abbasova, S. (2020). *Korreksiya işlərinin həyata keçirilməsi*. Poliqraf.

Daxil oldu: 03.05.2025
Qəbul edildi: 18.07.2025